Tarix və onun problemləri, №3 2009

**ESMİRA CAVADOVA**
*tarix elmləri namizədi,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

# AMEA MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNUN ƏMƏKDAŞI TARİX ELMLƏRİ NAMİZƏDİ TAHİRƏ HƏSƏNZADNİN «XVIII-XIX ƏSRLƏRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI İCTİMAİ-SİYASİ XADİMLƏR» KİTABINA

## R Ə Y

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra tariximizin olduğu kimi yazılması prosesi başlanmışdır və bu proses davam edir. Tarix elmləri namizədi Tahirə Həsənzadənin 2007-ci ildə Nurlan nəşriyyatında çapdan çıxmış «XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər» adlı kitabı da bu məqsədlə yazılmışdır. Kitabda İran alimi Mehdi Bamdadın «Tarixi-ricali-İran» adlı çoxcildli əsərinin əsas mənbələrdən biri kimi götürüldüyü göstərilmişdir. Əsər fars dilindədir və 6 cilddə nəşr edilmişdir. Bu cildlərdə digər məlumatlarla yanaşı, Azərbaycanın görkəmli şəxsiyyətləri, ictimai-siyasi xadimləri, diplomat və hərbçiləri haqqında dəyərli məlumat verilir. Azərbaycan tarixinin doğru-dürüst, ətraflı öyrənilməsində, ötürülən boşluqların doldurulmasında Tahirə xanım Həsənzadənin qələmə aldığı «XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər (Mehdi Bamdadın «Tarixi-ricali-İran» əsəri əsasında)» monoqrafiyasının da öz əhəmiyyəti vardır. Əsərin yazılması ilə əlaqədar tədqiqatçı-alim göstərir ki, İran dövlətinin qorunub-saxlanılmasında, onun ictimai-siyasi həyatında çox mühüm rol oynamış Nadir şah, Ağaməhəmməd şah Əfşar və Qacar kimi görkəmli dövlət xadimlərinin əməyi olmuş, bu dövlət xadimlərinin ətrafında onlara sadiq azərbaycanlı sərkərdələr, diplomat və başqa şəxsiyyətlər fəaliyyət göstərmişlər. Monoqrafiya 2 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və şəxsi adlar göstəricisini əhatə edir. Müəllif mövzunu əsasən 3 istiqamətdə işıqlandırır:

1. Səfəvilər dövləti süquta uğradıqdan sonra hakimiyyətə gəlmiş Nadir şah Əfşarın fəaliyyəti və onun qələbələrinin iştirakçıları.
2. Qacarlar sülaləsi: Məhəmmədhəsən xan Qacar və onun oğlanları, Ağaməhəmməd şah Qacarın qurduğu böyük dövlət.
3. Qacarların hakimiyyəti dövründə (Müzəffərəddin şaha qədər) azərbaycanlı hərbçi, diplomat və digər görkəmli şəxslərin fəaliyyəti haqqında.

Monoqrafiyanın I fəsli «XVIII əsrdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər» adlanır. Müəllif haqlı olaraq bu fəsildə ilk öncə oxucunu XVIII əsrdə Səfəvilər dövlətində yaranmış gərgin ictimai-siyasi vəziyyətlə tanış edir və yazır ki, XVII-XVIII əsrlər bütövlükdə Səfəvilər tarixinin ən ağır dövrü olmuşdur. Bir tərəfdən, torpaq uğrunda gedən müharibələr, daxildə olan çəkişmələr, dini ayrı-seçkiliklər, digər tərəfdən də Avropa dövlətlərinin Şərqdə yerləşən ərazilərə, ölkələrə göz tikməsi dövlətin zəifləməsinə səbəb olurdu. Əsası I Şah İsmayıl Xətai (1501-1524) tərəfindən qoyulmuş qüdrətli Səfəvilər dövləti hakimiyyət uğrunda gedən çəkişmələr, döyüşmələr və sui-qəsdlər nəticəsində get-gedə zəifləyirdi. Bu zəiflik özünü Şah Sultan Hüseynin və II Təhmasibin dövründə daha qabarıq göstərdi. Nadirqulu xanın səyi ilə hakimiyyəti əlinə almış II Təhmasib dövlətin daxili və xarici siyasətini lazımi səviyyədə idarə edə bilmirdi. Sarayda olan zəkalı insanlar saraydan uzaqlaşırdılar. Şahın zəifliyindən istifadə edən Nadir Əfşar fürsəti əldən vermədən öz ətrafına ən cəsur döyüşçüləri, sərkərdələri

toplamış, ölkəyə basqın etmiş əfqanlara qarşı vuruşaraq qalib gəlmiş və II Şah Təhmasibi yenə İran şahı elan etmişdir. Bunun müqabilində isə Şah Təhmasib onu öz qoşunlarının baş komandanı təyin etmişdir. Təhmasibqulu xan bundan sonrakı bütün yürüşlərini əfqan, osmanlı və ruslara qarşı müvəffəqiyyətlə başa vurdu. Əfqanlarla olan döyüşlərdə qalib gəldiyi üçün Şah Təhmasib onu bu qələbəsinə görə bir sıra qiymətli əşyalar, o cümlədən daş-qaşla bəzədilmiş ciqqa ilə, ordu sərkərdələri üçün isə 300 dəst bahalı paltarla mükafatlandırır. Nadirin tələbi ilə isə bütün Xorasan, Simnan, Kirman, Mazandaran Təhmasibqulu xanın ixtiyarına verilir. İran qoşunlarının komandanlığı, sipəhsalar vəzifəsi ona tapşırılır, şahın bacısı Nadirin böyük oğlu Rzaqulu Mirzəyə ərə verilir. Şah tərəfindən Nadirqulunu «məmləkətlər padşahı» adlandırmaq, eləcə də onun adına qızıl və gümüş sikkələr vurulacağı haqqında fərman verilir. Məmləkətlər padşahı adından başqa, qalan fərmanları Nadir qəbul edir. Osmanlılarla döyüşə gedir (Osmanlıları məğlub edir. 1730-cu ildə Azərbaycanda hakimiyyəti bərqərar etmək üçün Təbrizə gedir). Ağır döyüşlərdə qalib gəlir və Heratı alır. Bu vaxt Şah Təhmasib isə Təhmasibquludan xəbərsiz Azərbaycana 1000 nəfərlik ordu ilə döyüşə getmişdi. O, bu döyüşlərdə məğlubiyyətə uğramış və onlarla rüsvayçı sülh bağlanmışdı. Araz çayının sol sahilində olan bütün şəhərlər yenidən osmanlılara verilmişdi. Bu hadisə Təhmasibqulunu çox əsəbiləşdirmiş və o, şahı hakimiyyətdən uzaqlaşdırmağın vaxtı çatdığını düşünmüşdü. Təhmasibqulu xan hiylə ilə Şah Təhmasibi devirib hakimiyyətə onun kiçik yaşlı oğlu III Şah Abbası gətirir. Hər ikisini Mazandarana göndərir. Təhmasibqulu xan Şah Təhmasibi taxt-tacdan uzaqlaşdırdıqdan sonra dövlətin butun qüdrətini əlinə keçirir. 1747-ci ildə Təhmasibqulu xan şahlıq taxt-tacına sahib olur. Nadir şah qüvvətli dövlət başçısı idi. O, ayrı-ayrı xanlıqlara parçalanmış dövləti bir yerə birləşdirmək uğrunda mübarizə aparırdı. Nadir şah İranda dəniz donanması yaradan ilk dövlət xadimi olmuşdur. Kitabda onun keçdiyi döyüş yolu xronoloji ardıcıllıqla işıqlandırılmışdır. Nadir şah 1747-ci ildə sui-qəsd nəticəsində öz keşikçiləri tərəfindən çadırda öldürülmüşdür. Ondan sonra dövlət vəliəhdsiz qaldı.

Monoqrafiyanın I fəslində eləcə də Nadir şah dövrünün ictimai-siyasi xadimlərinin fəaliyyətləri işıqlandırılaraq əsasən azərbaycanlılardan ibarət ordu, sərkərdələr, döyüşçülər, dövlətdə müəyyən mövqe tutanlar və diplomatlar haqqında məlumat verilir.

Əmiraslan xan ( -1748) Əfşar Nadir şahın əmisi oğlu idi. XVIII əsrdə İranın ictimai-siyasi həyatında, dövlətçiliyində özünəməxsus yer tutmuşdur. Nadir şahın siyasətini müdafiə edirdi. Ona sadiq sərkərdə idi. Əmiraslan xan qədər döyüşlərdə hərbi qələbələr qazanan döyüşçüləri barmaqla saymaq olardı. Əmiraslan xan Nadir şah tərəfindən Azərbaycanın və bütün Qafqazın hökmdarı – naibüssəltənəsi (1739-1748) təyin olunmuşdur. Əmiraslan xan İranın əfqanlarla olan döyüşlərində şahın və onun qətlə yetirilmiş övladlarının intiqamını almışdır. Nadir şahın nəvəsi Şahrux Mirzənin hakimiyyət taxtına əyləşməsində Azərbaycan ordusunun, o cümlədən Əmiraslan xanın misilsiz rolu olmuşdur. Əmiraslan xan xəyanət qurbanı olaraq qətlə yetirilmişdir.

Nadir şah Əfşar hakimiyyətinə sədaqətlə xidmət edənlərdən biri də onun ordu komandiri Baba xan Çavuşlu idi. O, eyni zamanda Təhmasibqulu xan Əfşar (Nadir şah) tərəfindən general-qubernator vəzifəsinə də təyin olunmuşdu. Baba xan Çavuşlu döyüşlərdə şücaət göstərmiş komandirlərdən idi.

Nadir şah dövrünün ictimai-siyasi xadimlərindən olan Qasım bəy Əfşar, Əmirxan bəy Qırxlu, Kəlbəli xan, Əmir Əhməd xan, Əlimərdan xan Şamlu, Məhəmmədhüseyn xan Əfşar, Təhmasibqulu xan Cəlayir, Əmir Fətəli xan Əfşar və Zülfüqar xanın keçdikləri döyüş yolu da bu fəsildə əks olunmuşdur.

Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri haqqında məlumat verməzdən öncə monoqrafiyanın müəllifi bu dövrü xarakterizə edərək ona öz münasibəti-

Tarix və onun problemləri, №3 2009

ni bildirmişdir.

Nadir şahdan sonra ayrı-ayrı xanlıqlara parçalanmış dövləti birləşdirmək cəhdi Ağaməhəmməd şah Qacara qismət olmuşdur. O, Tehranı paytaxt elan etmişdi. Nəcəfdə İmam Hüseynin qəbrini qızıl və gümüşlə bəzədərək xalqın rəğbətini qazanmışdı. Ağaməhəmməd şah Qacar sahları sülaləsinin banisi idi. İran tədqiqatçıları etiraf edirlər ki, əgər Ağaməhəmməd şah olmasa idi, indiki İran dövləti də olmazdı. Onun İran dövlətində böyük xidmətləri olmuş, keçdiyi döyüş yolu həmişə qələbələrlə nəticələnmişdi. Bamdad bu qələbələrlə şahlıq tacına layiq olmasını, tacqoyma mərasimini belə təsvir etmişdir: Ağaməhəmməd şah tacqoyma mərasimini Urmiyada 1210-cu ildə ramazanda (martda) Muğan düzündə keçirmiş, lakin başına Nadir şahın tacını qoymamışdır. Onun istəyi ilə düzəldilmiş tac başqa quruluşda – 4 lələkli idi ki, bu da İran, Hindistan, Əfqanıstan və Orta Asiya üzərində hökmranlıq rəmzi idi. Tacqoyma mərasimində ona təqdim olunmuş qılınc və çutqabağı Ərdəbildən, Şeyx Səfi məqbərəsindən gətirilmişdi. Bu da Ağaməhəmməd şah Qacarın Səfəvi hakimiyyəti ilə varisliyini göstərmək üçün idi. Müəllif daha sonra yazır ki, bir sıra mənbələrdə şahın tacqoyma mərasimi müxtəlif versiyalarla müxtəlif illərdə (1791, 1794, 1796) qeyd olunmuşdur. Nadir şah sui-qəsd nəticəsində keşikçiləri tərəfindən yataqda öldürülmüşdür. Ağaməhəmməd şah Qacar şəxsiyyəti haqqında sonralar müxtəlif rəvayətlər də yaranmışdır. Bu rəvayətlərdə Şah Qacarın igidliyi, rəhmsizliyi, sadiq döyüşçüləri ilə mehriban davranmasından danışılırdı.

Monoqrafiyanın müəllifi Tahirə Həsənzadə apardığı araşdırmalardan bu qənaətə gəlmişdir ki, Nadir şah Əfşar və Ağaməhəmməd şah Qacarın sui-qəsdlə öldürülməsi I Pyotr siyasətinin davamçılarının hazırlanmış planı idi. Hər iki Azərbaycan imperatoru Rusiya, İngiltərə, Fransa kimi xarici dövlətlərin Şərqə uzanan əllərini kəsirdi. Onların qarşısını almağa çalışır və torpaqlarının toxunulmazlığını qoruyurdu. Məhz bu müqəddəs iş uğrunda Qacar şahın yaxın silahdaşları döyüşlərdə qəhrəmanlıq göstərərək şaha öz sədaqətlərini sübut etmişlər. Murtuzaqulu xan Qacar, Cəfərqulu xan, Sadıq xan Şəqaqi, Canməhəmməd xan Qacar, Məhəmmədhüseyn xan Qacarqovanlu, Mustafa xan Dəvəlu, Rza xan Qacar, Süleyman xan Qacarqovanlu, Fətəli xan Qacar döyüşlərə başçılıq edən cəsarətli sərkərdələr idilər.

Monoqrafiyanın II fəsli «XIX əsrdə İranda (Qacarlar dövlətində) yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər» adlanır. Müəllif bu fəsildə yenə də ilk öncə XIX əsrdə Qacarlar dövlətində ictimai-siyasi vəziyyətlə oxucunu tanış edir. O, qeyd edir ki, XIX əsrdə İran tarixinin yeni bir dövrü başlanmışdır. İranın Avropa dövlətləri ilə siyasi və iqtisadi əlaqələri güclənir, Hindistan və başqa Şərq ölkələrinə yollar İrandan keçdiyi üçün İngiltərə, Fransa və Rusiyanın bu əraziyə marağı artırdı. İranın daxilində isə vəziyyət ağır idi. Əsrlər boyu yadellilərin işğalına məruz qalmış ölkə indi dağıdılmış, var-dövlətdən çıxmış bir vəziyyətdə idi. Qacarlar dövlətinin istəmədən qatıldığı I Rusiya – İran müharibəsi (1804 - 1813) Gülüstan müqaviləsi ilə bitdikdə Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqları Rusiya tərəfindən işğal olundu, II Rusiya – İran müharibəsi isə (1826-1828) Türkmənçay müqaviləsi ilə bitdi və Naxçıvan xanlığı, Ordubad dairəsi, İrəvan xanlığı Rusiyanın hökmranlığı altına keçdi və bununla da İran şahı Zaqafqaziyada mövqeyini itirmiş oldu. Bu müharibələrdə görkəmli azərbaycanlı sərkərdələr mərdliklə vuruşdular. Torpaqların tamamilə rus imperiyasının əlinə keçməsinə imkan vermədilər. I və II Rusiya – İran müharibələrində (əslində Rusiya – Azərbaycan müharibələri) Azərbayan ordusu və onun qəhrəman komandanı Abbas Mirzə Naibüssəltənə xüsusilə fərqlənmişdir. Bu barədə kitabda ətraflı bəhs olunur.

İranın ictimai həyatının gərcin dövründə bir sıra vətənpərvər ziyalılar əhalinin bu çətinlikdən çıxması üçün yollar axtarırdı. Bu prosesdə milliyyətcə azərbaycanlı ziyalılar

fəal iştirak edirdi. Mirzə Yusif Təbrizi, Əfqani və başqaları belə ziyalılardan idi.

Monoqrafiyanın II fəslinin 2-bölümündə Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimlərinin həyat və fəaliyyəti haqqında məlumat verilir. Abbas Mirzə Mülkara, Mirzə Hüseyn xan Qəzvini, Seyid Cəmaləddin Əfqani, Məhəmmədhəsən xan Marağai, Qürrətülleyn və başqalarının siyasi xadim kimi gördükləri işlərdən danışılır. II fəslin son 2 bölümündə İranda yaşamış azərbaycanlı hərbçilər, diplomatlar haqqında geniş məlumat verilir. Abbas Mirzə Nabüssəltənə dövrünün ictimai xadimi və ordu sərkərdəsi idi. 1831-ci ilədək Azərbaycan hökmdarı olmuş, şərəfli döyüş yolu keçmişdi. Hüseyn xan İrəvani (İrəvan sərdarı olmuşdur), qardaşı Həsən xan Sərdar (Sarı Aslan) İran qoşunlarının sərkərdələrindən olmuş, işğalçı rus qoşunlarına qarşı ağır döyüşlərdə iştirak edərək ad qazanmışdı. Cavad xan, Əsgər xan Əfşar və başqalarının adları Vətən torpağının bölünməzliyi uğrunda işğalçılara qarşı döyüşlərdə göstərdikləri igidliklərə görə tarixdə qalmışdı.

Rusiyanın İranda təşkil etdiyi Kazak diviziyasında xidmət edən azərbaycanlı generallar, polkovniklər İran dövlətinin apardığı siyasətlə razılaşmayaraq, İran ordusunu tərk edib xalq kütlələrilə birləşmişdilər (İbrahim xan Münşizadə, Əbdülqadir xan, Mirzə İsmayıl xan, Qaçaq Kərəm, Hüseyn xan Şahsevən və b.). Həmin məlumatlar diqqətçəkəndir.

XIX əsrdə İran dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrinin yaranmasında və inkişafında azərbaycanlı ictimai-siyasi xadimlərin mühüm rolu olmuşdur. Məhəmmədhüseyn xan Müqəddəm Marağai hərbi xadim, diplomat, adyutantbaşı, nizamüddövlə kimi tanınmışdı, onun oğlu general Əli xan, Xosrov Mirzə Qacar, Mirzə Yusif Təbrizli (demokratik fikirli bir ziyalı, yazıçı idi, «Yek kəlmə» əsərinə görə sürgün edilmişdi), Mirzə Rza Daneş (general-mayor, baş adyutant, prins, sərdar, knyaz kimi bir neçə ali rütbəyə və titula sahib idi) ictimai xadim kimi yüksək rütbələrdə və vəzifələrdə çalışmışdır. Mirzə Rza xan İrəvani dünyanın bir çox ölkələrinin orden və medalları ilə təltif olunmuşdur. Mirzə Əsədulla xan Azərbaycanın xarici işlər nazirliyinin əməkdaşı, Tiflisdə baş konsul, İranın İstanbulda səfiri, fars vilayətinin general-qubernatoru, ədliyyə naziri, Dövlət Şurasının başçısı olmuş, nizamüddövlə tituluna da layiq görülmüşdür.

Yuxarıda dediklərimizdən belə bir nəticəyə gələ bilərik ki, İran alimi Mehdi Bamdadın qələmə aldığı və nəşr etdiyi «Tarixi-ricali-İran» əsəri XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlərin həyat və fəaliyyətindən bəhs edərək o dövrün tarixini öyrənmək üçün nə qədər əhəmiyyətlidirsə, onun Azərbaycan elmi ictimaiyyətinə çatdırılmasında Tahirə Həsənzadənin zəhməti bir o qədər böyükdür. Tədqiqatçı Əlyazmalar İnstitutunun kitab xəzinəsində saxlanılan M.Bamdadın 5 cilddən ibarət «Tarixi-ricali-İran» əsərindən əlavə Azərbaycan, fars, türk, rus dilində, habelə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan mənbələrdən istifadə etməklə tədqiqatında 120 şəxsin bioqrafiyası haqqında ətraflı məlumat vermişdir. Monoqrafiyada orfoqrafik səhvlərə rast gəlinir. Lakin bu nöqsan monoqrafiyanın qiymətini azaltmır. Kitabın sonunda verilən şəxs adlarının göstəricisi monoqrafiyanın elmiliyinə dəlaləti artırır. Tahirə xanım Həsənzadə «XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər» mövzusunu araşdırmaya cəlb edən yeganə müəllifdir.